# I Avropa Oyunlarının Bakıda keçirilməsinin ölkəmiz üçün əhəmiyyəti çox böyükdür

**Son illər ərzində Azərbaycan dünyaya özünü dinamik inkişaf edən, müasir, güclü ölkə kimi təqdim edə bilib. Müstəqil dövlət kimi cəmi 24 ildir ki, yaşayan Azərbaycan dünyada çox etibarlı tərəfdaş və dost kimi tanınır.**

İlk Avropa Oyunlarının Bakıda təşkil olunması barədə 2012-ci il dekabrın 8-də İtaliyanın paytaxtı Romada keçirilən Avropa Olimpiya Komitəsinin 41-ci Baş Assambleyasında qəbul edilmiş qərar da Azərbaycanın sivil, dünyəvi, inkişaf edən ölkə olduğunun təsdiqidir. Bu tarixi qərar isə özlüyündə ölkəmiz üçün xüsusi əhəmiyyət daşıyır. Belə ki, bu cür mötəbər tədbirin Bakıda keçirilməsi Avropa ailəsinin Azərbaycana böyük etimadının açıq göstəricisidir. Dünya və qitə miqyaslı mötəbər idman tədbirlərinin hər hansı ölkədə keçirilməsinə qərar verilərkən, mütləq həmin ölkənin siyasi, ictimai, sosial, mədəni və digər sahələrindəki vəziyyəti araşdırılır. Ölkəmizin hərtərəfli və dinamik inkişafı, ictimai-siyasi sabitlik, mühüm beynəlxalq tədbirlərin keçirilməsində əldə olunan geniş təcrübə, müasir idman infrastrukturunun yaradılması, eləcə də idmançılarımızın beynəlxalq yarışlarda əldə etdiyi uğurlar I Avropa Oyunlarının Azərbaycanda keçirilməsini şərtləndirən başlıca faktorlardır.

Prezident İlham Əliyevin bütün sahələrə olduğu kimi, idman sahəsinə böyük diqqət və qayğısı var. Bu gün ölkəmizdə inşa edilən çoxsaylı idman kompleksləri, Azərbaycan idmançılarının son dövrlər beynəlxalq aləmdə qazandıqları parlaq qələbələr bu diqqət və qayğının bariz nümunəsi sayıla bilər.

"Bakı-2015" I Avropa Oyunları da Azərbaycanın adını, onun qüdrətini ilk Avropa Oyunlarının keçirildiyi məkan kimi dünya tarixinə əbədi yazacaq. Yaşından, dinindən, irqindən, siyasi mövqeyindən, ölkəmizə sevgisindən asılı olmayaraq, dünyanın idman arenasında hər kəsin yadında Azərbaycan ilk Avropa Oyunlarının təşkilatçısı kimi qalacaq.

İlk Avropa Oyunları dünyanın informasiya məkanına yeni çıxış imkanıdır. Bütün imkanlardan yararlanaraq, daha çox təbliğat aparmaq, mədəniyyətimizi, tariximizi, torpaqlarımızın işğalı faktını və bütünlükdə ölkəmizi təbliğ etmək qarşımızda duran əsas missiyadır. Yarışların Azərbaycanda keçirilməsi bir daha ölkəmizin müasir, demokratik və təhlükəsiz bir ölkə olduğunu təsdiqləyir.

I Avropa Oyunlarının ən böyük əhəmiyyəti Azərbaycan haqqında düşmən qüvvələrin formalaşdırdığı yanlış fikirlərin aradan qaldırılması olacaq. Qonaqlar bir daha Azərbaycanda gedən iqtisadi inkişafı, uğurlarımızı, Azərbaycanda milli zəmində heç bir problemin olmadığını görəcəklər. Gedəndə də Azərbaycanda gördükləri şəraiti öz ölkələrində danışacaqlar. Avropa Oyunları Azərbaycanı nəinki Avropada, bütün dünyada daha yaxşı tanıdacaq.

İyunun 12-dən 28-nə kimi davam edəcək bu idman bayramı Azərbaycanı Avropa tarixinə yazacaq. Avropa Oyunlarının məkanı dəyişəcək, amma ilk oyunlarının təşkilatçısı, həmin oyunlara ev sahibliyi edən Azərbaycanın birinciliyi dəyişməyəcək.

Avropa idman ailəsinin bizə göstərdiyi etimadın təməlində, eyni zamanda, idmançılarımızın uğurları da böyük rol oynayıb. Çünki Azərbaycan bu gün dünyada və Avropada idman dövləti kimi tanınır. İdmançılarımızın uğurları həm Avropa, həm dünya çempionatlarında, Olimpiya Oyunlarında özünü göstərir.

Azərbaycanın birinci xanımı, birinci Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın rəhbərliyi ilə bu möhtəşəm idman yarışına böyük hazırlıq işləri aparılıb. Təşkilat Komitəsinin sədrinin iştirakı ilə Avropanın bir çox ölkələrində təqdimat mərasimləri keçirilib. Bir sözlə, artıq bütün dünyanın diqqəti Azərbaycanda keçiriləcək "Bakı-Avropa Oyunları - 2015"dədir.

I Olimpiya Oyunları üçün tikilmiş və yenidən qurulan idman qurğuları, turizm obyektləri, müasir infrastruktur oyunlardan sonra da ölkəmizə, əhalimizə xidmət edəcək.

Azərbaycanı sivil, demokratik, tolerant ölkə kimi tanıyan avropalılar ölkəmizi həm də qədim tarixi, gözəl təbiəti, qonaqpərvər əhalisi, çeşidli və gözəl mətbəxi olan turizm ölkəsi kimi tanıyacaqlar. Ölkəmizə turistlərin axını artdıqca ticarət və iaşə sahəsi də inkişaf edəcək.

Qitə miqyaslı bu idman bayramını əksər Avropa ölkələri ilə yanaşı ölkə əhalisi də böyük maraqla gözləyir. Mən inanıram ki, idmançılarımız xalqımızı öz parlaq oyunları və qələbələri ilə bu yarışlarda sevindirəcəklər. Bütün idmançılarımıza "Bakı-2015" I Avropa Oyunlarında uğurlar arzulayıram.

**Asif ZEYNALOV,**
**Energetika Nazirliyi Dövlət Qaz Nəzarəti İdarəsinin rəisi.**

